Mədəniyyət

# "UNESCO öz səhvini başa düşdü"

**Vətən müharibəsindən sonra UNESCO-nun Azərbaycana qarşı qərəzli bəyanatlarını gördük. Bu sözləri Mədəniyyət naziri Anar Kərimov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, ancaq onlar öz səhvlərini başa düşdülər və hal-hazırda daha konstruktiv mövqedən çıxış edirlər: "Biz onlardan bu konstruktivliyi, ədalətli mövqeyi gözləyirik. Biz onlardan beynəlxalq hüquqa əsaslanan mövqe gözləyirik. Bu neçə il ərzində YUNESKO-nun ozamankı işğal olunmuş ərazilərimizdə monitorinq missiyası keçirmələrini gözlədik. Əfsuslar olsun, heç bir nəticə əldə etmədik.**





**Anar Kərimov,**
Mədəniyyət naziri

Onların Vətən müharibəsindən sonra verdiyi bəyanatlar bizi qane etmədi. Sərt mövqeyimizdən sonra artıq onlar başa düşdülər ki, bizimlə şantaj dilində danışmaq mümkün deyil, çünki biz başqa Azərbaycanıq.

İndi biz UNESCO-nun mövqeyində konstruktiv yanaşmaları müşahidə edirik. UNESCO-nun Azərbaycana texniki missiyasının başlanması gözlənilir. Bu danışıqlar heç də asan keçmir, ancaq mövqelərimizdən dönmürük. Məqsədimiz də ondan ibarətdir ki, UNESCO nümayəndələri gəlib Qarabağda erməni cinayətlərinin, vandallıqlarının şahidi olsun".

Çıraqqala tarixi abidəsinin beynəlxalq səviyyədə təbliği ilə bağlı planlarımız var. Anar Kərimov deyib. O bildirib ki, 2019-cu ildə başlanılan bərpa konservasiya işlərinin cari ilin sonuna yekunlaşdırılması planlaşdırılır. Nazir həm də qeyd edib ki, abidənin və istehkam yerlərinin YUNESKO-nun ümumdünya mədəni irs siyahısına daxil edilməsi planlaşdırılır.

Şabran rayonu ərazisində yerləşən, V-VI əsrlərə aid "Çıraqqala" abidəsində bərpa-konservasiya işləri yekunlaşmaq üzrədir. Anar Kərimov deyib:

"Ərazidə yerləşən meşənin içindən qalayadək eni 2 metr, uzunluğu 530 metr olan yol salınıb, tam yararsız vəziyyətə düşmüş körpü qaya daşları ilə bərpa olunub, sıldırım qayalar üzərində qala ətrafı ayaqaltılar quraşdırılıb, baş bürcün dağılmış hissələri bərpa olunub, körpü ilə qala arasında qayalar üzərində yol çəkilib və taxtadan asma pillələr düzəldilib.

Baş bürcdə, həmçinin 1 və 2-ci, 2 və 3-cü, 3 və 4-cü, 17 və 1-ci, 16 və 17-ci, 15 və 16-cı qüllələr arasında qala divarının dağılmış yerlərinin, eyni zamanda ovdanın qismən bərpası işləri görülüb. Həmçinin ərazidə arxeoloji tədqiqatlar aparıldıqdan sonra aşkar olunmuş tikililərdə əlavə konservasiya işləri həyata keçirilib".Hazırda bərpa-konservasiya işlərinin davam etdiyi "Çıraqqala" abidəsində həyata keçirilən işlər mühüm əhəmiyyət kəsb edir. Bu, həm tarixi dəyər baxımından, həm də əraziyə turist səfərlərinin artması baxımından çox önəmlidir.

> *"Hazırda Azərbaycan Film Kinostudiyasının maddi bazasının təkmilləşdirilməsi istiqamətində işlər aparılır"*

Qeyd edək ki, Gilgilçay müdafiə səddi Xəzər dənizindən başlayaraq Böyük Qafqaz sıra dağlarının dərinliklərinə qədər, 120-130 km uzunluğunda böyük bir ərazini əhatə edir. Səddin baş tikilisi Şabran rayonu ərazisində yerləşən "Çıraqqala" abidəsi V-VI əsrlərdə inşa edilib.

Tarixi abidə möhtəşəm görünüşü və tikinti xüsusiyyətləri ilə inşa edildiyi ərazidə dominant rol oynayaraq, yerləşdiyi məkanın simvoluna çevrilmişdir. Təqribən 2 hektarlıq ərazini əhatə edən "Çıraqqala" mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarət düzbucaqlı formadadır. Qala və qoruyucu divarların iri miqyasları, onların uzun müddətdə, çoxsaylı insan əməyi ilə ərsəyə gəldiyindən xəbər verir. "Çıraqqala" müdafiə kompleksinin divarları böyük həcmli daş hörgüdən ibarət olub. Qalanın baş bürcü qaya üzərində yerləşməyinə baxmayaraq, qaya ilə hörgünün birləşdiyi yerdə hörgüdə böyük aşınma və dağıntılar baş verməşdi. Digər bürc və divarlarda da vəziyyət ürək açan olmayıb, qalanın salamat qalan yerlərinin üzlük hörgü hissələrində dağıntılar əmələ gəlib. Xatırladaq ki, "Çıraqqala" abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 13 mart 2019-cu il tarixli Sərəncamına əsasən 2019-cu ilin iyul ayından abidədə bərpa-konservasiya işlərinə başlanılıb.

Bizə elə gəlir ki, bu, köhnə dövrə aid olan məsələdi. Biz cavabımızda nailiyyətlərimiz haqqında məlumat verdik. Bu barədə jurnalistlərə açıqlamasında Mədəniyyət naziri Anar Kərimov Maliyyə naziri Samir Şərifovun kino sahəsi ilə bağlı iradlarına cavab olaraq deyib.

O bildirib ki, qısa zamanda kifayət qədər işlər görülüb: "Bundan sonra da kino sahəsində işlər davam etdiriləcək. Bu sahə elədir ki, qısamüddətli nəticələr gözləmək çətindir. Uzunmüddətli prosesdir. Hazırda Azərbaycan Film Kinostudiyasının maddi bazasının təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Bundan başqa, təmir bərpa işləri də gözlənilir. Kinokonsepsiya yenidən işlənilir və onun beynəlxalq standartlara cavab verməsinə nail olmuşuq".